***Azərbaycan 44 günlük Zəfər yürüşü ilə şərəfli tarix yazıb. Doğma torpaqlarımızın 30 illik işğalına son qoymuşuq. Bu, igid Vətən oğullarının qanı, canı bahasına başa gəlib. Özü də onların əksəriyyəti gənclər olub. Möhtərəm Prezidentimizin dövründə yetişən, Qarabağı heç görməyən gənclər. Hər birinin neçə-neçə arzusu yarımçıq qalıb. Amma Vətənin bütövlüyü ilə bağlı arzularını canlarını qurban verməklə gerçəkləşdiriblər. Şəhidlərin ölməz ruhuna ehtiram əbədi borcumuzdur. Onlar ölümün gözünə dik baxmasaydılar, torpaqlarımızı öz qanları ilə qarış-qarış suvarmasaydılar, biz irəli gedə, halal-hümmət sahiblərinin qədəmləri üçün qəribsəmiş yurd yerlərini azad edə bilməzdik. Bu gün həmin yerlərdən, uca zirvələrdən üçrəngli, Ay-ulduzlu bayrağımız boy göstərməzdi.***

***Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Onlar Vətən uğrunda şəhid olmuşlar







Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhidlərimizin, Vətən uğrunda döyüşlərdə hünər göstərmiş gənclərimizin nümunəsini yüksək qiymətləndirib: "Bu gün bizim qəhrəman gənclərimiz – dövlət tərəfindən yüksək orden, medallarla təltif edilmiş gənclərimiz gənc yaşlarında uşaqlar üçün nümunə olublar, 18, 20, 25, 30, 35 yaşında nümunə olublar. Onlar bu məsuliyyəti dərk edirlər və həyatda özlərini elə aparmalıdırlar ki, bu yüksək məsuliyyət daim onların üzərində olsun, uşaqlar, yeniyetmələr onlara baxıb, onlar kimi olmaq istəsinlər. Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar".

Çağdaş tariximizin danılmaz həqiqətidir ki, Azərbaycan gəncliyinin qəhrəmanlığı ilk növbədə onun şəhidlik zirvəsinə ucalması ilə örnəkdir. 44 günlük Vətən müharibəsində bu oğulların hər biri tarix yaradıb. Ötən il sentyabrın 27-də – Anım Günündə Bakıda təşkil olunan möhtəşəm yürüşün unudulmaz anları yaddaşımıza həmişəlik həkk olunub. Həmin yürüşdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı Qarnizonunda yerləşən hərbi hissələrin 3000 nəfər kursant və hərbi qulluqçusu iştirak edirdi. Yürüş sayəsində sanki bir daha nur üzlü şəhidlərimizlə qarşılaşdıq. Dövlət başçısının təşəbbüsü ilə qəhrəman şəhidlərimizin hər birinin portreti hazırlanmışdı və gənc hərbçilər həmin portretləri başları üzərində tutaraq yürüş etdilər.

...Elə bil ki, şəhidlərimiz özləri meydan boyu irəliləyirdilər. Buna görə də sıralar daha sıx, addımlar daha mətin idi. Şəhidlərimizin statistik sayı 3000 nəfər olsa da, onların haqq-sayı hesaba gələn deyil. Ölməz ruhları daim başımızın üstündə dolaşan bu cənnətməkanlar sanki Zəfərimizə cani-dildən sevinir, ata-analarının, qardaş-bacılarının qalib xalqın nümayəndələri kimi başlarını dik tutub irəliləməsindən qürurlanırdılar.

Cənab İlham Əliyevin anım günü yürüşündə portretini tutduğu şəhid Adil İbrahimli idi. Bütün şəhidlərimizin ruhları qarşısında baş əyməklə, Adilin və daha bir neçə ölməz qəhrəmanın qısa, lakin şərəfli ömür yoluna nəzər salaq.

**Adil İbrahimli** 1992-ci il sentyabrın 9-da Sumqayıtda anadan olub. 1999–2008-ci illərdə bu şəhərdə, bir vaxtlar bu sətirlərin müəllifinin də oxuduğu 14 nömrəli məktəbdə təhsil alıb. Daha sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və ardınca da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. Adil Xüsusi Təyinatlı Qüvvələrin sıralarında xidmət edirdi. Baş leytenant idi. 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə fərqlənib. Noyabrın 7-də Şuşada şəhid olub. II Fəxri xiyabanda uyuyur. Ailəli idi, 2 övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Prezident İlham Əliyevin sərəncamına əsasən Adil İbrahimliyə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verilib. O, həmçinin "Vətən uğrunda","Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Yardımlı rayonunun Kürəkçi kəndindən olan kəşfiyyatçı mayor **Elçin Mansurova** da ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə cəmi bircə gün iştirak etsə də, Elçin qarşıya qoyulmuş tapşırığı layiqincə yerinə yetirib. Sentyabrın 27-də Füzuli ərazisində şəhidliyə qovuşub. "Vətən uğrunda" medalı da kəşfiyyatçının hünərinə verilən qiymətdir.

...Müharibənin ilk günü, səhər saat 9.30 idi. Kəşfiyyatçılardan ibarət 24 nəfərlik qrup düşmənin üstünə ilk şığıyanlardan oldu. Elçin Mansurov gecə tapşırığından qayıtsa da, öndə gedir, hər an əsgərlərinə ruh verirdi. Döyüş dostları Səbuhi, Gündüz, Sabir, Qurbanla "Biz Poladıq, biz burdayıq!" və "Vətən uğrunda can alıb can verənlərin şərəfinə!" hayqırtıları ilə irəli atıldılar. Çoxsaylı erməni hərbçisini yerə sərdilər və 3 mühüm postu qısa vaxt ərzində ələ keçirdilər. Vətən müharibəsində alınan yerlərə ilk bayrağı da məhz Elçingil sancdı. Sonra qorxmaz qəhrəmanımız tabeliyində olan qrupdan ayrıldı və düşmən bölmələrinin yerləşdiyi dərinliklərə təkbaşına həmlə edərək, daha 22 düşmən əsgərini öldürdü. Təəssüf ki, geri qayıdan zaman "Buğra dərəsi" adlanan ərazidə düşmən snayperi tərəfindən vurularaq şəhid oldu.

Hərbi xidmətinin 13 ilini bilavasitə cəbhənin qaynar nöqtələrində – Tovuzda, Murovda, Füzulidə olan hərbi hissələrdə keçirmiş Elçin Mansurov hələ 2016-cı ilin şanlı Aprel döyüşlərində cəsurluğunu sübut eləyib. Ən çətin kəşfiyyat tapşırıqlarına yollanıb. Zabit dostlarının dediyinə görə, "Tənha canavar" ləqəbi ilə tanınıb. Bunun da səbəbi Elçinin tez-tez "dil" gətirmək məqsədilə kəşfiyyata gedərək düşmənin arxasına keçməsi olub. Dəfələrlə tutub gətirdiyi dığalardan mühüm kəşfiyyat məlumatları alınıb. Tabeliyində olmuş əsgər dostlarından biri hələ sağlığında ona – məğrur baxışlı gözəl insana, igid komandirə sevgilərini bu misralarla bildirib: "Düşmənə qan uddur, yurdumuzdan qov, Sənə təsir etməz güllə və alov!"

Elçin Mansurov Bakıdakı II Fəxri Xiyabanda Milli Qəhrəman, general Polad Həşimovun məzarının yaxınlığında torpağa tapşırılıb. Elə gün olmur ki, gül-çiçəyə qərq olmuş məzarı ziyarət edilməsin.

...Polad Həşimovun məzar qonşularından biri də şəhid **Cəbrayıl Dövlətzadədir**. O da Elçin Mansurov kimi, Vətən müharibəsində cəmi bir gün iştirak edib. Sentyabrın 28-də, 19 yaşında bircə gündə, hətta bir neçə dəqiqə ərzində elə bir qəhrəmanlığa imza atıb ki, səsi-sədası dünyaya yayılıb, ölməz xatirəsi bütün Azərbaycanın yaddaşında əbədiləşib. Cəbrayıl xüsusi təyinatlı batalyonun igid əsgəri, cüdoçu idi. Murovdağ istiqamətində gedən döyüşlərdə hünər göstərib. Həmin gün əks-hücum əməliyyatında 11 zabitlə birlikdə komanda məntəqəsi uğrunda döyüşə o da qatılmışdı. Erməni zabitlərinin gizləndiyi kazarmaya çatanda fürsəti əldən verməyən Cəbrayıl: "Siz gəlməyin, ailəniz var. Mənsə subayam, özüm gedəcəyəm Poladın qisasını almağa", – deyərək, irəli atılıb və düşmənləri yerindəcə məhv edib. Həmin gün ağır yaralanan qəhrəmanımız arzuladığı şəhidlik zirvəsinə ucalıb.

Cəbrayıl Dövlətzadə 2001-ci ildə Sumqayıt şəhərinin Corat qəsəbəsində dünyaya göz açıb. Zirək uşaq olub, güclü idmançı kimi bir çox yarışda qələbə qazanıb. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Sərhəd Qoşunlarında xidmət etsə də, özü ərizə yazaraq könüllü döyüşlərə qatılmaq istəyini bildirib. Dostları onun mərd, qətiyyətli bir gənc olduğunu söyləyir, adı ilə hədsiz qürur duyurlar. Ərazi bütövlüyümüzün bərpası naminə canından keçən Cəbrayıl "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə"medallarına layiq görülüb.

Bəli, şəhidlər ölmür, əbədi ömür qazanırlar. Hər birinin xatirəsi milyonların ürəyində yaşayır. Onların örnək həyatı nəsillərin yoluna işıq saçır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***